# “Don Kixot”lar ölmür...





■ Nigar Pirimova
*teatrşünas*

Çox zaman cəmiyyətdə elə insanlar olur ki, yaşanan haqsızlıqlara baş əymək istəmir, özlüyündə bir dünya qurur ki, bu dünyada o, qəhrəmandır. İstəyir ki, onun sayəsindən pisliklər dəf edilsin, onun sayəsində insanlar mutlu-məsud yaşasın, xoşbəxt həyat bərpa olunsun. Lakin bu nə qədər mümkündür? Çox zaman belə uydurmaları nağıllarda, əfsanələrdə duyduq, dinlədik. Zəmanəmizin belə qəhrəmanları da oldu, olacaq da, sonu necə olur-olsun. Belə “qəhrəmanlardan” biri də orta məktəb illərindən yaxşı tanıdığımız lamançlı Don Kixotdur. Yəqin ki, onu tanımayan, amalının və məqsədinin nə olduğunu bilməyən az insan tapılar. Kitablardan oxuduq, televizorlarda izlədik, son zamanlarda isə tamaşalarına rast gəlirik. Əslində, nə qədər gözəldir, canlı-canlı Don Kixotlarla qarşılaşmaq, başlarına gələn gülməli, məzəli, kədərli əhvalatların şahidi olub, kənardan seyr etmək. Yox, yox, elə düşünməyin ki, indi mən hamımızın bildiyi o məşhur Don Kixotdan danışacağam. Haqqında fikirlərimi bölüşmək istədiyim obraz Əhmədağa - Don Kixotdur.



Bu dəfə Dövlət Kukla Teatrında maraqla məşqini izlədiyimiz tamaşa mərhum dramaturq Rəhman Əlizadənin “Don Kixot Abşeronski” əsəri əsasında hazırlanan səhnə əsəridir. Tamaşaya teatrın baş rejissoru Qurban Məsimov quruluş verir. Bir hissəli müzikl kimi təqdim olunan səhnə əsərinin quruluşçu rəssamı İqbal Əliyev, bəstəkarı (mahnıların sözləri Rəhman Əlizadənindir) Əməkdar artist Vüqar Camalzadədir. Düşünürəm ki, tamaşanın fərqli olmasının bir səbəbi də var: Kukla Teatrının Don Kixotu 70 yaşlı olsa da, “min cavana dəyən” qeyri-adi danışığı, yumoru, ədaları, zarafatları ilə seçilən Xalq artisti İlham Namiq Kamaldır.

Bu dəfəki qəhrəmanımız İspaniyadan deyil, elə yaşadığımız Bakıdan, daha dəqiq desək, Abşerondandır. Ömrü boyu bəxti gətirməyən Əhmədağa həyatından, bir növ, bezib, yeniliklər istəyir, baş verənlərə aydınlıq gətirmək, həyatında dəyişiklik etmək, faydalı bir insan olmaq arzusundadır. Ətrafında olan hər kəsə lazımsız görünsə də, o belə düşünmür. Səbəb? Əhmədağanın uşaqlıqdan dönə-dönə oxuduğu, özünə qəhrəman seçdiyi və indi də hər kəsin köməyinə çatacaq Don Kixotu var. Bu günə qədər Əhmədağa adının elə bir xeyir gətirmədiyini görən qəhrəmanımız özünü Don Kixot kimi qələmə verir ki, bəlkə onun dedikləri insanları bəladan, çətinlikdən qurtarar. Axı, hamının xəyalında bir qəhrəmanı olur. İnsan tənha qaldıqda özü olur. Artıq evdən çıxırsansa, libasını dəyişib cəmiyyətə addım atırsan. Belə olduqda mütləq və mütləq sən maskalaşırsan. Hər kəslə dialoqda bir maskada olmalısan. Don Kixot da belə bir maskadır, amma hamıya qarşı bir maska. Ona görə də, Əhmədağa fikirləşir ki, bəlkə uydurduğu qəhrəmanını dinləyərlər və o, milləti bataqlıqdan dartıb çıxara bilən saman çöpü olar. Lakin tanıdığımız və bildiyimiz Don Kixot necə uğursuzluğa düçar oldusa, Əhmədağa da eynilə bir işə yaraya bilmədi. Onun da uydurduğu bu qəhrəman nə yaxşılıq etməyə çalışdısa, əksinə olaraq, düz anlaşılmadı və ancaq problem yaratdı. İnsanları daha da qəzəbləndirdi və “artıq adam”lardan biri oldu. Onun saf niyyətini, arzularını, istəyini anlayan tapılmadı ki, tapılmadı.

Rəhman Əlizadənin əsərindən fərqli olaraq, təbii ki, rejissor Qurban Məsimov tamaşaya öz yozumunu verib. Sovet dövrünün sonlarında yazılan əsər rejissor yozumunda müasir dövrümüzlə səsləşir. Məzəli hadisələrlə dolu tamaşada milli Abşeronski Don Kixotumuz, inanıram ki, seyrçiləri darıxmağa qoymayacaq. Tamaşa dramatik sonluqla - Əhmədağanın intiharı ilə bitsə də, rejissor final səhnəsini yumoristik formada həll edib. Belə ki, Don Kixot, daha doğrusu, Əhmədağa sonda toz basmış zirzəminin içinə düşəcək. Burada o, Stalinin, Leninin heykəlləri ilə, dünyasını dəyişmiş aktyorların geyimləriylə və s. qarşılaşacaq və məhz bundan sonra öz faciəsini dərk etməyə başlayacaq. Bu da rejissorun tamaşadakı maraqlı tapıntılarından biridir. Axı, nə də olmasa, “Qəhrəmanlar ölmür”. Bununla yanaşı, rejissor Mirzə Ələkbər Sabirdən, Mirzə Cəlildən, Məhəmməd Füzulidən, İmadəddin Nəsimidən, Əliağa Vahiddən nümunələr gətirərək tamaşaya milli kolorit qata bilib.

Məşq prosesindən sonra tamaşanın rejisoru Qurban Məsimovun da fikirlərini öyrəndik: “Özünütəsdiq problemi yaşayan, gerçəkliyin burulğanında faciəsini dərk etməyə qorxan Əhmədağanın Don Kixotlaşması özlüyündə maraqlıdır. Səhnə materialı alt qatdakı ideyaya impuls üçün əvəzsizdir. Bununla Əhmədağa həqiqəti demək, cəmiyyətdəki əyriliklərə öz münasibətini bildirmək istəyir. Amma ətrafındakı xoşagəlməzliklərə etirazını özü kimi yox, Don Kixot olaraq bildirir. Düşünür ki, Əhmədağa olduğu halda onu kimsə qəbul etməz, dinləməz. Ona görə də maska taxmaq, obraza girmək istəyir və Don Kixota çevrilir. Axı o da yalana, ədalətsizliyə, haqsızlığa qarşı vuruşurdu. Bu mənada tamaşa, Əhmədağanın mübarizəsidir. Təbii ki, Don Kixot maskası ilə. Əsər sovetlərin dağıldığı dönəmdə yarandığından o dövr insanının problemlərini önə çəkir, hədəf kimi kommunizm ideologiyasını göstərir. Ədəbi materialdakı problemlərə bəşəri kontekstdən yanaşmağa çalışmışıq. Yəni bu narazılıqlar, anlaşılmazlıqlar Yer kürəsinin hər yerində baş verə bilər. Əsas faktor insandır və o, firavan bir cəmiyyət arzulayır”.

Bir zamanlar “İlham” miniatür teatrında Don Juan Abşeronskini oynayan, öz ədaları, mizanları, zarafatları, özünəməxsus ifaçılıq üslubu ilə yaratdığı bütün tamaşalarda yaddaşlarda qalan, istər milli, istərsə də xarici dramaturgiya nümunələri əsasında hazırlanmış səhnə əsərlərində rəngarəng obrazlar canlandıran sevimli aktyorumuz İlham Namiq Kamal ifa edəcəyi milli Don Kixotu haqqında bunları danışdı: “Əhmədağa nə qədər Don Kixotlaşsa da, öz milliliyini, elmini, dünyadərkini, təhkiyeyi-kəlamlarını unutmur. Sabirdən, Mirzə Cəlildən, Füzulidən, Nəsimidən nümunələr gətirir, keçmişindən, milli və nəşəri ümumbəşəri dəyərlərindən qopmur və öz yanğısını ifadə formasındakı müxtəlifliklərdən asılı olmayaraq, bir məqsədə yönəlir: insanlığa. Bütün maddi dünyadan qopur və öz həqiqətinə çağırır. Tamaşaçıların reaksiyası mənim üçün çox maraqlıdır. Hansı teatr olursa olsun, vacib olan maraqlı tamaşa və ona maraqla baxan tamaşaçısıdır. Bu mənada önəmli olan yaxşı, baxımlı tamaşa hazırlamaqdır. Belə olduqda tamaşaçı gələcək. Böyüklər üçün hazırlanan bu tamaşada dünyanı dərketmə prinsipindən söz açılır. İnsanın çirkablara müqavimət göstərib daxili təmizliyini saxlamaq əzmindən danışılır. Mənə elə gəlir ki, Don Kixot da, Əhmədağa da saf insanlardır. Həyatda isə saf insanları qorumaq lazımdır. Mən də onu o cür yaratmağa çalışacağam. Əgər tamaşaçı da onu o cür qəbul etsə, bu həm də sənətin uğurudur”.

